22 aprel / 2021

Azad AZƏRBAYCAN

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

# Zəfər tariximizin ölməz qəhrəmanı: Musa Mustafayev

**Vətənini ürəkdən sevən, onun yolunda şəhid olan daha bir qəhrəmanımız Masallı rayonu, Xoşçobanlı kəndində dünyaya göz açmış Musa Əlövsət oğlu Mustafayevdir. Onun ömür yolu cəmi 19 il çəkdi. İkinci Qarabağ müharibəsində göstərdiyi rəşadətlə bütün Masallı camaatının başını uca etməklə, həm də gələcək gənclərin and yerinə çevrildi.**



Ailənin yeganə oğlan övladı olan Musa orta məktəbi bitirib müstəqil həyata başlayanda el-obada hamı onun əxlaqından, doğma yurda sonsuz sevgisindən, yaşına uyuşmayan təmkinindən, insanlığa sevgisindən böyük məhəbbətlə danışırdılar. Erməni faşistlərinin işğalı altındakı Qarabağı azad görmək bu Vətən sevdalı gəncin əsas məqsədinə dönür.

2019-cu ildə həqiqi hərbi xidmətə yola düşən Musanın birinci ürəyindən keçirdiyi döyüş meydanında düşmənlə üz-üzə gəlib onun başını əzmək idi. Və məqamı gələndə Vətən torpaqlarının hər qarışının azadlığı naminə canını qurban verməyə and içir.

**Musa Mustafayev Cəlilabaddakı Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edir. Vətənini canından əziz tutan əsgər komandirlərin tapşırıqlarını vaxtında və yüksək keyfiyyətlə yerinə yetirir. Təlimlərdə döyüşkənliyi, mübarizliyi komandirlərini razı salır. Həm də Musada ən yaxşı xüsusiyyətlərdən biri həmişə öyrənməyə can atması olur. Bu döyüşkən, mərd, sədaqətli, vətənpərvər oğlanı əsgər yoldaşları da çox sevirlər.**

İkinci Qarabağ savaşı başlananda Musa Vətənin haqq çağırışına ürəklə gedir. Halal torpaqlarımızı erməni dığalarından təmizləmək məqsədilə ağır müharibə meydanında cəsarətlə döyüşün önündə olur, çiyin yoldaşlarını da qələbə inamı ilə hücuma səsləyir. Fəqət, Vətənə ilahi sevgisi, qələbəyə olan tükənməz inamı onu çox ölümlərdən qoruyur. Füzulidə gedən müharibədə xüsusi qəhrəmanlığı ilə yaddaşlarda qalır. Rayonu azad görəndə ürəyi qürurdan dağa dönür. Ürəyi düşmən gülləsinə tuş gələndə qələbə sevinci ilə gözlərini əbədi yumur və adı tarix yaradan qəhrəmanların sırasına yazılır.

**Masallı torpağının yetirdiyi igid Musa qısa, amma son dərəcə şərəfli ömür yaşadı. O, əbədi xalqın ürəyində məskən salmaqla, dövlət tərəfindən də "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medallarına layiq görüldü.**

**Zəfər ORUCOĞLU**